**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR BEYNƏLXALQ SİYASİ PROSESLƏRDƏ İDARƏOLUNAN XAOS: SİYASİ TƏHLİL

İxtisas: 5908.01 – "Siyasi nəzəriyyə"
Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Bəhruz Əliövsət oğlu Nəzərov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və siyasi idarəetmə" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | siyasi elmlər doktoru, professor<br>**Hikmət Baba oğlu Məmmədov** |
| Rəsmi opponentlər: | siyasi elmlər doktoru, professor<br>**Aqiyə Həbib qızı Naxçıvanlı** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Nigar Fikrət qızı Qəhrəmanova** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Afət Ağa Əli qızı Səfərova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının FD 2.30 Dissertasiya Şurası nəzdində yaradılmış BED 2.30 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi: | siyasi elmlər doktoru, dosent<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi Seminarın sədri: | siyasi elmlər doktoru, dosent<br>**Kənan Hüseyn oğlu Allahverdiyev** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İdarə olunan xaos müasir dövrdə rəngli inqilablar, informasiya müharibələri, hibrid münaqişələr və sosial manipulyasiyalar vasitəsilə həyata keçirilərək, milli dövlətlərin siyasi və iqtisadi sabitliyini pozmaq üçün bir vasitə kimi istifadə olunur. Beynəlxalq güc mərkəzləri idarə olunan xaos nəzəriyyəsinin tətbiqi sayəsində öz maraqlarını həyata keçirmək üçün müxtəlif ölkələrdə xaotik vəziyyətlər yaradır və onun üzərindən yeni siyasi nizam qurmağa çalışırlar. Bu strategiya, xüsusilə rəngli inqilablar, iqtisadi sanksiyalar, dezinformasiya kampaniyaları və qeyri-hökumət təşkilatları vasitəsilə təsir gücünü artırmışdır. Belə yanaşmaların əsas məqsədi hədəf seçilmiş ölkələrdə daxili sabitliyi pozmaq, cəmiyyət daxilində qütbləşməni artırmaq və həmin dövlətləri beynəlxalq güclərdən asılı vəziyyətə salmaqdır.

Hazırda müasir dünyamız dərin, xaotik və təzadlarla dolu transformasiya mərhələsini yaşayır. Hamının öz həyatında və ətrafda müşahidə etdiyi elmi-texniki tərəqqinin gətirdiyi yeniliklər hər sahəyə öz təsirini göstərməkdədir. Bu proseslərin ümumiləşdirilməsindən qaynaqlanan yeni tendensiyalar ziddiyyətliliyinə baxmayaraq çox vaxt sosial sferaya da transfer edilir və bəzi hallarda xaotik hadisələrin fonunda tamamilə gözlənilməz formalarda özünü büruzə verir. Baş verən xaotik dəyişiklikləri yalnız sosial deyil, siyasət dünyasına da aid edə bilərik. Xaotik sistemin əsas xüsusiyyəti ilkin şərtlərə həssaslıqdır. Çoxlu seçim strategiyaları olan siyasi sistem xaotik vəziyyətə yaxın olan riyazi modeli xatırladır. Belə bir vəziyyətdə növbəti addımın proqnozlaşdırılması və ya yeni strategiyanın müəyyənləşdirilməsi qeyri-mümkün olur. Proqnozlaşdırılmanın mümkünlüyünə dair məhdudiyyətlər məlumat çatışmazlığı və ya həddindən artıq mürəkkəblik kimi amillərdən qaynaqlana bilər. Xaotik bir sistemdə iki yaxın strategiya iki tamamilə fərqli qərara, iki tamamilə fərqli siyasi nəticəyə səbəb ola bilər. Məsələn, biri dövlətin sülh strategiyasının seçilməsi ola bilər, digəri isə müharibə ola bilər.

Azərbaycanın müstəqillik qazandığı ilk illərdə ölkəmizin parçalanmaq təhlükəsi qarşısında qalmasına səbəb olan bir çox amillərin arxasında idarə olunan xaos texnologiyalarının izləri aşkar edilmişdir. Dövlətimizin apardığı balanslaşmış siyasət və kənar

təsirlərin qarşısının alınması istiqamətində səfərbər olunmuş vətəndaş cəmiyyəti konsepsiyası  idarəolunan xaos nəzəriyyələrinin ölkəmizə tətbiqinin qarşısını ala bilmişdir. Bu çətinliklərin aradan qaldırılmasında Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi, iqtisadi və sosial islahatların, eləcə də xalq-lider birliyinin müstəsna ideoloji rolu vurğulanmışdır. Ulu Öndər Heydər Əliyev tərəfindən söylənilən "respublikamızda hüquqi dövlət qurulması, demokratik svilizasiyalı cəmiyyət yaradılması insan azadlığının, söz vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir".[1] Bu ali fikirlər cəmiyyətimizi bütün növ xaosların mənfi təsirlərindən qorudu.

Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı üzləşdiyi təzyiqlər və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması ilə nəticələnən mübarizə də bu kontekstdə araşdırılmışdır. Siyasi təhlillər əsasında belə bir nəticə təqdim edilmişdir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş daxili və xarici siyasət nəticəsində ölkəmizdə sabitlik və inkişaf təmin edilmiş, idarə olunan xaos texnologiyalarına qarşı dayanıqlı milli müdafiə mexanizmləri formalaşdırılmışdır. Bu siyasət nəticəsində Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilmiş, regional və qlobal proseslərdə mühüm rol oynamamaqdadır. Prezident ilham Əliyevin söylədiyi kimi: "Bu gün Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvüdür, regonal müstəvidə çox müsbət rol oynayır. Bizim təşəbbüslərimiz regional əməkdaşlığın gücləndirilməsinə istiqamətləndirilib"[2]. Qlobal məkana açıq olan Azərbaycan cənab İlham Əlievin uğurlu və praqmatik siyasəti ilə bir çox çətin şəraitləri uğurla dəf etdi.  Qeyd etdiyimiz kimi ölkəmiz suverenliyini tam təmin etdi.

Ümumiyyətlə isə siyasətin intellektuallaşması, informasiyalaşması və texnologiyalaşması kimi proseslər zamanla öz əhəmiyyətini artırmaqdadır. Bu texnologiyalar beynəlxalq və regional siyasi prosesləri sürətləndirir, siyasi qərarların qəbul edilməsi

---

[1] Əliyev Heydər Müstəqillik yolu seçilmiş fikrlər.-Bakı; Azərbaycan Universiteti nəşriyyatı 1997 136 s., səh 5

[2]Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ümümdünya Mədəniyyətlərarası Dialoq Forumunda nitqi. 07-09 aprel 2011-ci il. http://president.az/articles/1845

prosesində mütəxəssislərin və elmi araşdırmaların əhəmiyyətini nəzərə çarpacaq dərəcədə artırır, böyük informasiya axınlarının idarə edilməsi üçün yeni imkanlar yaradır. Eyni zamanda siyasi manevrləri müşahidə edən, izləyən güc mərkəzləri də müəyyən transformasiyalara uğrayır, bütün bunlar isə beynəlxalq siyasət arenasında öz təsirini göstərməkdədir. Xaotizmin mühüm bir ünsürü olan internetin inkişafı da yeni siyasi reallığın formalaşmasında müstəsna rola oynayır. Sosial şəbəkələr insanların həyatında əhəmiyyətli bir fenomenə çevrilməklə, sosial gündəmləri idarə edir, ictimai həyatı yönləndirirlər.

Dövlətlər arasında qlobal miqyasda qarşılıqlı əlaqələrin yaranması əməkdaşlıq və dayanıqlı inkişaf üçün imkanlar yaratdığı kimi, beynəlxalq siyasi rəqabət, mədəni və sivilizasiyalararası ziddiyyətlər də meydana çıxarır. Böyük dövlətlərin öz hegemonluqlarını qoruyub saxlamaq əzmi onları daha aqressiv olmağa sövq edir, beləliklə də dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanılması ilə əlaqədar böhran situasiyası daha da dərinləşir.

Belə bir dövrdə dövlətlər təkcə hərbi gücdən istifadə etməklə problemlərin həll olunacağının mümkün olmadığını daha yaxşı anlayırlar. Beynəlxalq münasibətlər sistemində artıq yeni anlayışlar meydana gəlir. Bu baxımdan "idarəolunan xaos" anlayışı müstəsna əhəmiyyətə malikdir. Dissertasiya dovrümüzün yeni reallığına çevrilmiş "idarəolunan xaos"un siyasi strategiyasının mahiyyəti, böyük dövlətlərin öz təsir dairələrini genişləndirmək məqsədlərinə nail olmaq üçün prosesləri xaotizmə çevirmə taktikaları, həmçinin bu siyasətin milli dövlətlərə tətbiqi mexanizmi və onun nəticələri kimi aktual problemlərin araşdırmasına həsr edilmişdir.

Mövzunun aktuallığı aşağıdakı bəndlərlə ifadə etmək olar:

- Müasir beynəlxalq siyasi mənzərə mürəkkəbliyi və gözlənilməzliyi ilə fərqlənir. Geosiyasi rəqabət, qarşılıqlı iqtisadi asılılıq, kibermüharibə, qlobal terrorizm və iqlim dəyişikliyi kimi problemlər "idarə olunan xaos" anlamının meydana gəlməsinə səbəb olmuşdur. Siyasi güc mərkəzlərinin bilməyərəkdən və ya qəsdən belə şərtləri necə yaratdıqlarının, idarə və istifadə etmələrinin araşdırılması qlobal idarəetmə, diplomatiya və münaqişələrin həllinə mühüm töhfələr verə bilər.

- "İdarə olunan xaos"un məzmununa həmçinin güclü dövlətlər və qeyri-dövlət aktorları tərəfindən rəqiblərin stabilliyini pozmaq, öz

nüfuzunu yüksəltmək, regional və qlobal güc dinamikasını formalaşdırmaq üçün istifadə olunan strategiyalar daxildir-hibrid müharibələr, dezinformasiya kampaniyaları və iqtisadi məcburiyyət daxildir. Bu strategiyaların daha dərindən təhlili, taktikaları başa düşmək və onlara qarşı müqavimət formalaşdırmaq baxımından tədqiq edilən mövzu aktuallıq kəsb edir.

- "İdarə olunan xaos" beynəlxalq təşkilatlara, regional bloklara və ikitərəfli münasibətlərə də öz təsirini göstərir. Münaqişələrin həlli və idarəetmə üçün istifadə olunan ənənəvi mexanizmlərə meydan oxuyur. Problemin təzahürlərinin və təsirlərinin təhlil edərək, bu cür strategiyaların sabitliyi pozan nəticələrinin yumşaldılmasına verilə bilən töhfələr baxımından da də mövzunun aktuallığını qeyd etmək olar.

Problemin işlənmə dərəcəsi təhlil edilərkən dissertasiya işinin yazılması prosesində mövzunun müxtəlif aspektlərinə həsr olunmuş Azərbaycan, rus və ingilis dillərində elmi ədəbiyyat və mənbələr geniş şəkildə araşdırılmışdır.

Tədqiqat mövzusu ilə bağlı Rusiyada çoxsaylı elmi əsərlər yazılmışdır.

Qeyd olunanlardan başqa xaos nəzəriyyəsinin bu və ya digər aspektlərini Mitroşenkov O.A.[3], Petrov P.A.[4], Mann S.R.[5], Remarçuk V.N.[6], Sayfulin İ.S.[7], Savçenko A.V.[8], Vasilyev M.V.[9], Ukolov V.F.,

---

[3] Митрошенков О. А. Теория управляемого хаоса: использовать себе во благо // Власть. 2017. Том 25. № 8. С. 64-73.

[4] Петров П.А. Теоретические основания концепции «управляемого хаоса» в социальной философии // Научно-технические ведомости СПбГПУ. Гуманитарные и общественные науки. 2017. Т. 8, № 4. С. 77–87

[5] Mann S.R. Chaos Theory in Strategic Thought // Parametes. Autum 1992. sit.: M.S.G. Nitzschke. United States Marine Corps Vietnam: A Complex Adaptive Perspective

[6] Ремарчук В.Н. «Управляемый хаос» как политическая технология в современной геополитике. Гуманитарный вестник, 2014, вып. 1. URL: http://hmbul.bmstu.ru/catalog/polit/hidden/153.html

[7] Сайфулин. И.С. О политической технологии «управляемого хаоса» и возрастании рискогенной политической активности в современной России. Изв. Сарат. ун-та. Нов. сер. Сер. Социология. Политология. 2015. Т. 15, вып. 1

[8] Савченко А.В. «Теория хаоса» Стивена Манна и корпоративное управление. УПРАВЛЕНИЕ № 1(15) / 2017. 104: 72–79. Москва, 2017.

Kostryukov V.A.[10], Demidov A.V.[11], Tlepsok R.A.[12], Davıdov A.A.[13], Şults E.E.[14], Solovyov A.İ.[15] və başqaları araşdırmışlar. Bu kontekstdə araşdırma aparmış tanınmış tədqiqatçılardan İlya Priqojinin araşdırmaları xüsusi diqqəti cəlb edir. O xaosun dağıdıcı güclə yanaşı, nizam yaradan gücə də malik olduğunu sübuta yetirdi. Xaosun nizam yaratmaq qabiliyyəti təsdiqləndikdən sonra o 1950-ci illərdə ictimai-sosial sferaya transfer edildi və tədricən xaos nəzəriyyəsinin bazasında idarəolunan xaosun əsasları işlənib hazırlandı. Yeni nəzəriyyə ayrı-ayrı ölkələrdə mövcud nizamı pozaraq orada xaosun yaradılmasını, daha sonra isə onun üzərində yeni nizamın yaradılmasını nəzərdə tuturdu. Ölkələrin və onların xalqlarının manipulyasiya edilməsində əlverişli alət olduğu üçün sonrakı illərdə idarəolunan xaosun yaradılması mexanizmləri və üsulları təkmilləşdirilərək dünyanın bir sıra ölkələrində sınaqdan keçirildi və işlək nəzəriyyə olaraq qəbul olundu.

Eyni zamanda İ.Priqojin və İ.Stenqerslə birgə yazdıqları "Xaosdan çıxmaq: İnsanın təbiətlə yeni dialoqu" əsərində xaos və siyasət

---

[9] Васильев М.В. «Управляемый» хаос как технология неоколониального передела мира // Научно-методический электронный журнал «Концепт». – 2016. – Т. 15. – С. 2161–2165. – URL: http://e-koncept.ru/2016/96352.htm

[10] В.Ф.Уколов, В.А.Кострюков. Международные технологии управляемого хаоса. Вестник Университета № 6, 2014 s. 2018-221

[11] Демидов А.В. От «мягкой силы» к «управляемому хаосу» // Международные отношения. 2014. № 2. С. 230-236. URL: https://nbpublish.com/library_read_article.php?id=64946

[12] Тлепцок Р.А. «Цветные революции»: теоретический концепт и политическая практика Ежеквартальный рецензируемый, реферируемый научный журнал «Вестник АГУ». Выпуск 4 (249) 2019. с. 60-71

[13] Давыдов А.А. Арабские революции 2011 г.: системная диагностика // Системный мониторинг глобальных и региональных рисков: Арабская весна 2011 г. / Ред. А.В. Коротаев, Ю.В. Зинькина, А.С. Ходунов. – М.: ЛКИ, 2012. – С. 175–176

[14] Шульц Э.Э. Технологии бунта: «цветные» революции и «арабская весна». Национальные интересы: приоритеты и безопасность. Угрозы и безопасность 19 (256) – 2014

[15] Соловьев А.И. Государственные перевороты в структуре активности правящего класса. Заблуждения очевидца // Власть и элиты. 2021. Т. 8, № 2. С. 202–215.

arasında əlaqələri araşdırmağa cəhd etmişlər.[16]

Qərb müəlliflərinin çoxsaylı əsərlərində araşdırdırmanın müxtəlif aspektlərinə həsr olunmuş kifayət qədər mənbələrə rast gəlinir.

Qərb tədqiqatçılarının nəzərində xaos anlayışını arxa plana salan, onun yerinə təbiətin nizamı fikrini gətirən düşüncə məşhur alim, fizik Nuytona məxsusdur. O yerin cazibə qüvvəsi qanunu vasitəsilə dünyada əbədi var olan nizamla bağlı mövcud fikirləri elmi bir bazaya sala bildi. 1898-ci ildə fransız riyaziyatçı Jak Hadamard, 1906-cı ildə Pierre Duhem və sairləri xaos düşüncəsini həm elmi, həm də nəzəri şəkildə əsaslandırmağa başladılar. Hər iki elm adamının ifadə etdikləri fikir sonrakı mərhələdə formalaşacaq olan xaos nəzəriyyəsində xüsusi bir anlayış təşkil edən "Başlanqıc nöqtəsinə həssas bağlılıq" və "Kəpənək təsiri" effekti düşüncəsini yaratdı. Bu da alim Edvard N.Lorensin meterologiya elmində hava proqnozunda qarşılaşdığı hadisədə olduğu kimi ölçmələrdə qeyri-müəyyənlik (*Uncertanity of measurements*) adlanan fikri formalaşdırdı. Bu fikrin determinizm qaydalarında yaradacağı mənfi təsirləri ilk dəfə Henri Puankare (1854-1912) dəqiqləşdirdi. Belə ki, Nyuton qanunları iki göy cisminin hərəkətinə mükəmməl dərəcədə uyğunluğu ifadə edir, amma ikidən çox cisimdən bəhs etdiyimizdə burada analitik təhlil kifayət etmir. Sorakı mərhələdə xaotik dinamik adlandırılan xaotik sistemlərin davranışlarının araşdırılmas birbaşa olmasa da diferansial hesablamalar aparılaraq edilirdi. 1920-ci ildə G.D.Birkov, 1940-cı ildə M.L.Kartvriqt və J.F.Littlevud, 1960-cı ildə A.N.Kolmoqorov ilə S.Smal bu istiqamətdə araşdırmalar apardılar. Anlayış olaraq xaos termini qarışıqlıq, nizamsızlıq kimi qəbul olunsa da, XX ərsrdə aparılan tədqiqatlar nəticəsində, xüsusilə də rus alimi İlya Priqojinin araşdırmaları xaosun dağıdıcı güclə yanaşı, nizam yaradan gücə də malik olduğunu sübuta yetirdi. Xaosun nizam yaratmaq qabiliyyəti təsdiqləndikdən sonra o 1950-ci illərdə ictimai-sosial sferaya transfer edildi və tədricən xaos nəzəriyyəsinin bazasında idarəolunan xaosun əsasları işlənib hazırlandı. Yeni nəzəriyyə ayrı-ayrı ölkələrdə mövcud nizamı pozaraq orada xaosun yaradılmasını, daha sonra isə onun üzərində yeni nizamın yaradılmasını nəzərdə tuturdu. Ölkələrin və

---

[16] Prigogine, I., & Stengers, I. (1984). Order Out of Chaos: Man's New Dialogue with Nature. Toronto ; New York, N.Y.p.349 : Bantam Books

onların xalqlarının manipulyasiya edilməsində əlverişli alət olduğu üçün sonrakı illərdə idarəolunan xaosun yaradılması mexanizmləri və üsulları təkmilləşdirilərək dünyanın bir sıra ölkələrində sınaqdan keçirildi və işlək nəzəriyyə olaraq qəbul olundu. Görkəmli tədqiqatçı James Gleick-in "Xaos: Yeni Elm Yaradılmalı" əsərində xaos nəzəriyyəsinin əsaslarını izah edir və onun müxtəlif sahələrdə, o cümlədən sosial elmlərdə tətbiqinin mümkünlüyünü irəli sürür.[17]

Azərbaycan dilində problemin araşdırılmasına töhfə vermiş müəlliflərdən akademik R.Mehdiyevin[18,19], AMEA-nın müxbir üzvü, professor M.Qasımlının[20,21,22,23], A.Abbasbəylinin[24,25], V.Abdullayevin[26], Abbasbəyli A.N., Darabadi P.Q., İbrahimov Ə.G.[27], Şəfi Üzeyirin[28], C.Əhmədli[29] və s. alimlərimizin adlarını çəkə bilərik.

**Tədqiqatın obyektini** "İdarə olunan xaos"un konkret geosiyasi, iqtisadi və ya ideoloji məqsədlərə nail olmaq üçün qeyri-sabitliyin

---

[17] Auckland 10, New Zealand. Copyright © James Gleick, -in "Chaos: Making a New Science" 1987. All rights reserved. First published in 1987 by Viking Penguin Inc. Published simultaneouslyin ..p..360 https://opencourses.ionio.gr/modules/document/file.php/DAVA275/James%20Gleick%20-%20Chaos.%20Making%20a%20new%20science.pdf

[18] Mehdiyev R. Azerbaycan: Qloballaşma dövrünün tələbləri, Yeni nəşrlər Evi, Bakı: -2005, -s.91

[19] Mehdiyev R.Ə. Gələcəyimizin strategiyasını müəyyənləşdirərkən. Bakı: Şərq-Qərb, -2008,-215 s.

[20] Qasımlı Musa, Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə. Bakı: Mütərcim, -2015, -648 s.

[21] Qasımlı Musa, Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). II hissə. Bakı: Mütərcim, -2015, -664 s.

[22] Qasımlı Musa. Avropa və Amerika ölkələrinin müasir tarixi. 2 hissədə. I hissə (1918-1945). Bakı: -2003, -370 s.

[23] Qasımlı M. Xarici siyasət: reallıqlar, uğurlar və perspektivlər. – Müstəqillik yollarında -25. Bakı, Şərq-Qərb nəşriyyatı, 2016, s.328-349

[24] Abbasbəyli A. Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının nəzəri problemləri. B.: Şirvannəşr, 2006, 348 s.

[25] Abbasbəyli A. Müasir dünyanın siyasi mənzərəsi. B.: Təhsil, 2008, 276 s.

[26] Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. B.: Azərbaycan" nəşriyyatı, 2000, 280 s.

[27] Abbasbəyli A.N., Darabadi P.Q., İbrahimov Ə.G. Konfliktologiya. Bakı: BDU, 2006, 286 s.

[28] Şəfi Ü. Konfliktologiya. Siyasi-sosial təhlil. Bakı: Adiloğlu, -2002, -182 s.

[29] Əhmədli C. Cəmiyyət, siyasət, ideologiya. Bakı 1997

qəsdən tətbiq olunan və ya kəskinləşdirilən strategiyaları, idarəolunan xaosun yaranma səbəbləri və formalaşma üsulları, böyük siyasi güclərin, beynəlxalq siyasi təşkilatların ondan yararlanma formaları, xaosun fəaliyyət mexanizminin, strategiyasının, texnologiyasının hazırlanması və s. tədqiqi təşkil edir.

**Tədqiqatın predmetini** idarə olunan xaosun müasir beynəlxalq münasibətlərdə yeri və rolu, onun məzmunun konkret hadisələr, nümunələr və təhlillər vasitəsilə araşdırılması, siyasi hadisələrin gedişatında, rəngli inqilablarda, hakimiyyət çevrilişlərində, regional münaqişələrdə, inqilablarda, iqtisadi böhranlarda, hibrid müharibələrində və informasiya manipulyasiyasında, siyasi aksiyaların keçirilməsində, və s.lərdə məqsədli şəkildə yaradılam xaotizmin mahiyyəti təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Müasir beynəlxalq siyasi münasibətlərdə xaosun yaranma formaları, xüsusiyyətləri o cümlədən dünyada baş verən siyasi proseslərdə güclü dövlətlərin ondan istifadə etmək imkanlarını müəyyənləşdirmək, milli dövlətçilik, azərbaycançılq, eləcə də balanslı, qarşılıqlı hörmət və ehtirama əsaslanan xarici siyasət xətti yürüdən Azərbaycanımız üçün milli təhlükəsizlik kontekstindən irəli gələn məsələlərin araşdırılması əsas məqsəd olaraq qarşıya qoymuşdur. Məqsədə uyğun olaraq dissertasiyada aşağıdakı vəzifələrin həllinə cəhd edilmişdir:

-dünyada baş verən siyasi proseslərin və bu proseslərdə idarəolunan xaosun yerini və rolunun forma və imkanlarını müəyyənləşdirmək;

-idarəolunan xaos nəzəriyyəsinin yaranması tarixini və məzmun şalarlarını müəyyənləşdirmək;

-idarəolunan xaosun yaradılma üsullarının qloballaşma ilə əlaqələrini üzə çıxarmaq;

- milli dövlətlərə güclü dövlətlərin təsirində xaos mexanizmlərinin oynadığı rolu müəyyənləşdirmək;

-Oxşar ssenarilər əsasında dünya ölkələrində baş verən etiraz aksiyaları, rəngli inqilablar və hakimiyyət dəyişikliklərini idarə olunan xaos kontestində araşdırmaq;

-İdarəolunan xaos təhlükəsinin zərərsizləşdirilməsi üsulları və formaları müəyyənləşdirilməsi;

-Azərbaycanda xaotik vəziyyətlərin yaradılmasına edilən

cəhdlərin qaşısının alınmasında xalq-lider birliyinin özünəməxsus xüsusiyyətlərinin üzə çıxarılması.

- Regiondakı siyasi münaqişələrdə xaotizmin təsir imkanlarını və böyük güclərin mövqeyini müəyyənləşdirmək;
- Dünyada və regionda siyasi təhlükəsizliyin və istiqlalın təmin edilməsində Azərbaycanın rolunun dəyərləndirilməsi, yürütdüyümüz balanslı, mehriban qonşuluq prinsiplərinə əsaslanan xarici siyasəti; o cümlədən bəzi xarici güclərin regionda və ölkəmizdə stabil vəziyyətin pozulması cəhdlərinin və xaos təhlükəsininin zərərsizləşdirilməsi üsulları və formalarını araşdırmaqdır.

**Tədqiqat metodları.** Tədqiqat işində sistemli yanaşma, struktur funkisonal analiz, müqayisəli təhlil, induktiv, deduktiv metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir:

1. "İdarəolunan xaos" anlayışı beynəlxalq siyasi strategiya kimi formalaşaraq, XXI əsrin geosiyasi qarşıdurmalarında dominant alətlərdən birinə çevrilmişdir. Dissertasiyada bu konsepsiyanın elmi-fəlsəfi mənşəyi, tarixi inkişaf xətti, nəzəri əsasları və praktiki tətbiq sahələri sistemli şəkildə izah olunur.

2. Qloballaşma və informasiya texnologiyalarının sürətli inkişafı "idarəolunan xaos"un tətbiqini həm genişləndirmiş, həm də onu daha çevik və çoxplanlı bir siyasi texnologiyaya çevirmişdir. Bu texnologiyanın rəqəmsal platformalar, sosial şəbəkələr və kiberməkan vasitəsilə necə effektiv şəkildə istifadə olunduğu konkret nümunələrlə sübut edilir.

3. Böyük dövlətlər və beynəlxalq aktorlar tərəfindən "idarəolunan xaos"dan milli dövlətlərin daxili sabitliyini pozmaq və öz maraqlarına uyğun siyasi rejimlər qurmaq üçün istifadə olunması geosiyasi manipulyasiyanın yeni mərhələsi kimi təhlil edilir. Bu texnologiyanın hibrid müharibə, rəngli inqilablar və siyasi etirazlar kimi konkret formaları araşdırılmışdır.

4. Müxtəlif regionlarda – Şərqi Avropa, MDB, Yaxın Şərq, Afrika və Cənubi Qafqazda – "idarəolunan xaos"un tətbiq mexanizmləri müqayisəli şəkildə təhlil edilmiş, hadisələr arasında oxşar ssenarilərin varlığı sübut olunmuşdur.

5. Azərbaycanın müstəqilliyin ilk illərində yaşadığı xaotik situasiyalar və onların siyasi nəticələri "idarəolunan xaos"

prizmasından qiymətləndirilmişdir. Bu prosesin qarşısının alınmasında ümummilli lider Heydər Əliyevin liderlik strategiyası və İlham Əliyevin dövründə davam etdirilən milli təhlükəsizlik siyasətinin əhəmiyyəti xüsusi vurğulanır.

6. Azərbaycan əleyhinə həyata keçirilmiş və ya planlaşdırılmış xaotik ssenarilər dissertasiyada konkret şəkildə təhlil olunmuş, bu hallara qarşı ölkənin tətbiq etdiyi siyasi, hüquqi və ideoloji müqavimət strategiyaları müəyyənləşdirilmişdir.

7. "İdarəolunan xaos"un yalnız dağıdıcı deyil, həm də konstruktiv güc kimi istifadə edilə bilməsi – yəni xaos üzərində nizam qurmaq konsepsiyası – siyasi idarəetmənin transformasiyasında yeni bir paradigma kimi təqdim olunur.

8. Dissertasiyada "idarəolunan xaos"un sosial psixologiyaya təsiri və informasiya manipulyasiyası vasitəsilə ictimai rəyin formalaşdırılması, ictimai narazılığın yönləndirilməsi mexanizmləri də tədqiq olunaraq, onun ictimai sabitlik və milli birliyə təsiri araşdırılır.

9. Müxtəlif beynəlxalq təcrübələrin təhlili əsasında Azərbaycanda belə stratejiyalara qarşı daha dayanıqlı institusional və ideoloji müqavimət mexanizmlərinin formalaşdırılması üçün tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi problemin təqdim olunan formada ilk dəfə elmi-nəzəri baxımdan araşdırılmasında ifadə olunur. Tədqiat zamanı əldə edilən digər elmi yeniliklərin konkret ifadəsini aşağıdakı kimi sıralaya bilərik:

1. İdarəolunan xaosun mahiyyətini açılması, onun başlıca anlayış və kateqoriyalarının müəyyənləşdirilməsi;

2. İdarəolunan xaosun əsas siyasi texnologiyalarının üzə çıxarılması;

3. Beynəlxalq güc mərkəzlərinin oz siyasi maraq və ambisiyalarını həyata keçirmək üçün və xaotik qarşıdurmalar yaradıb onu idarə etməsi texnologiyalarının üzə çıxarılması;

4.İdarəolunan xaosun müxtəlif cəmiyyətlərdə müxtəlif tətbiq edilmə formalarının müəyyənləşdirməsi (dinc aksiyalar, rəngli inqilablar və s.);

5.İdarə olunan xaosun müxtəlif ölkələrdə tətbiq nümunələri araşdırılaraq, Azərbaycanın milli təhlükəsizlik maraqları baxımından bu strategiyalara qarşı effektiv müqavimət metodları təklif edilmişdir.

Hazırda dünyanın siyasi münaqişəli zonalarında xaosun təşkili, sosial cəmiyyətdə narazı təbəqənin yaradılması, siyasi sistemlərin ədalətsiz və qanunsuz hesab edilməsinin siyasi metodologiyasının işlənib hazırlanması, eləcə də ölkələrin rəhbərliyinin sosial – iqtisadi səriştəsizliyinin, böhranların beynəlxalq güclərin, mənafeyinə işləməsi prosesinin qurulması; hakim elitanın rəngli inqilablarla dəyişdirilməsi üsulları və s.lərin elmi əsaslandırılması da tədqiqatın elmi yeniliklərinə aiddir.

**Tədqiqat işinin nəzəri və elmi-praktik əhəmiyyəti.** Mövzunun araşdırılmasını müasir beynəlxalq münasibətlərin siyasi mahiyyətinin, xarakterik xüsusiyyətlərinin xaos kontekstində dərk edilməsinə, çıxarılmış nəticələrdən müvafiq elmi-tədqiqat İnstitutlarının, dövlət qurumlarının, qeyri – hökümət təşkilatlarının praktik fəaliyyətlərində istifadə etməsinə verilən töhfə kimi dəyərləndirmək olar.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın məzmunu və əsas müddəaları müəllifin Azərbaycanda, eləcə də başqa ölkələrdə keçirilən elmi konfranslardakı çıxışlarında, çap olunmuş elmi məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Tədqiqat Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.

**Tədqiqat işinin quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və ixtisarların və şərti işarələrin siyahısından ibarətdir.

Giriş 12 səhifə (21974 işarə), I fəsil 28 səhifə (53844 işarə), II fəsil 54 səhifə (108973 işarə), III fəsil 39 səhifə (77464 işarə), nəticə 4 səhifə (6014 işarə), dörd dildə (azərbaycan, türk, rus, ingilis) və internet resursları ilə tərtib edilmiş 286 adda mənbədən ibarət, 22 səhifəlik istifadə edilmiş ədəbiyyat siyahısı və ixtisarların və şərti işarələrin siyahısı 1 səhifə olmaqla işin ümumi həcmi 161 səhifə, 268269 işarə sayından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın "**Giriş**" hissəsində dissertasiya işinin mövzusunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, eyni zmanada məqsəd və vəzifələri müəyyənləşdirilmiş, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyən edilmiş, müdafiəyə çıxarılan müddəalar verilmiş, işin strukturu və həcmi qısa şəkildə göstərilmişdir.

Tədqiqatın birinci fəsli "**İdarəolunan xaos nəzəriyyəsinin mahiyyəti və məzmunu**" haqqındadır. Bu fəslin I paraqrafı "**İdarəolunan xaos nəzəriyyəsi: yaranma tarixi və formalaşması**" adlanır.

Xaos anlayışı orta əsr xristianlıq təfəkküründə də mövcuddur. Orta əsrlər renesans ədəbiyyatında Con Miltonun "Paradise Lost" və Vilyam Şekspirin "Otello" əsərlərində də xaos anlayışına rast gəlinir. Hər iki mütəfəkkir xaos terminini "İncil"də qeyd olunduğu formada təqdim ediblər. Məlum olduğu kimi orta əsr Qərb düşüncəsinin əsas xüsusiyyətini xristianlıq təşkil edirdi. Roma imperiyası xristianlığı rəsmi din olaraq qəbul etdikdən sonra bu inancı Şərqə qarşı özünün ideologiyasına çevirmişdi. Bu mənada Romanın xaos anlayışını Bizans davam etdirdi. S.L.Bontinqin də qeyd etdiyi kimi, Qərbdə Roma İmperiyasının xəyallarını canlandırmaq missiyasını kilsə ələ keçirmiş, saf xristianlıq anlayışı qədim inanclarının güclü təsiri altına düşmüşdü.[30]

Müəllif burada qeyd edir ki, idarə olunan xaos nəzəriyyəsi politologiya, sosiologiya və sistemli təhlilin kəsişməsində meydana çıxan mürəkkəb və çoxqatlı anlayışlardan biridir. Onun mahiyyətində belə bir ideya dayanır ki, xaos və qeyri-sabitlik siyasi, iqtisadi və sosial məqsədlərə nail olmaq üçün məqsədyönlü istifadə oluna bilər. Bu fenomen qeyri-sabitlikdən güc aləti kimi istifadəni nəzərdə tutduğundan çoxlu mübahisələrə və müzakirələrə səbəb olur və kökü antik yunan fəlsəfəsinə gedib çıxır. Yunan mənşəli söz olan *xaos* (*khaos*) ilk dəfə b.e.ə. VII əsrdə Hesiodun "tanrıların yaradılışı" mənasına gələn "Theogania" əsərində qeyd olunur. Onun poeması tanrıların doğulmasına və dünyanın yaranmasına həsr olunmuşdu.

---

[30] Sjoerd L.Bonting, "Chaos Theology: A New Approach to the Science- Theology Dialogue", Zygon: Journal of Religion & Science, -1999, vol.XXXIV, No:2

Hesiodun fikrincə, xaos dünyanın nəinsə yaranmasından əvvəl ilkin halında olan vəziyyətidir. Onun mahiyyətində belə bir ideya dayanır ki, xaos və qeyri-sabitlik siyasi, iqtisadi və sosial məqsədlərə nail olmaq üçün məqsədyönlü istifadə oluna bilər. Bu fenomen qeyri-sabitlikdən güc aləti kimi istifadəni nəzərdə tutduğundan çoxlu mübahisələrə və müzakirələrə səbəb olur və kökü antik yunan fəlsəfəsinə gedib çıxır.

**“İdarəolunan xaos qloballaşma dövrünün əsas siyasi texnologiyası kimi”** adlanan ikinci paraqrafda bildirilir ki, qloballaşma prosesinin nə zaman başlanması ilə bağlı yanaşmalar bir-birindən kəskin sürətdə fərqlənməkdədir. Başlıca yanaşmalardan biri, qloballaşmanın bəşər tarixinin ilk dövrlərindən mövcud olması fikridir. Filosof və siyasi analitik Heydər Camal qeyd edir ki, ilk xəlifəlik institutu dünya tarixində ilk qlobal liberal cəmiyyətdir və o, Qərbi xilafətin varisi hesab edirdi.

Bir qisim alimlər isə qloballaşmanın ilkin mərhələlərinin XVI-XVII əsrlərə təsadüf etdiyini vurğulayırlar. Bildirirlər ki, Avropa dövlətlərinin ticarət və müstəmləkə siyasətləri bu prosesin əsasını qoymuşdur.

Məlum olduğu kimi, texnologiya, telefon, televiziya, peyk ötürücüləri, İnternet və bu kimi əlaqələrin inkişafı millətlərin mədəniyyətlərinin və dinlərinin bir-birinə yaxınlaşmasına şərtləndirir. Prosesin gedişinin vahid, müştərək ideologiya və mədəniyyətə doğru istiqamətləndiyini vurğulayanların sayı artmaqdadır. Bu gün insan özünün fərdi və milli maraqlarından əlavə beynəlxalq məsələləri də diqqət mərkəzində saxlamağa məhkumdur. Dünyanın vahid mərkəzdən idarə olunmasının tərəfdarı olan müəyyən qüvvələr müştərək bir quruluşun formalaşmasını, bəşəriyyətin qəbul edə biləcəyi yeni mədəniyyətin meydana gəlməsini gözləməkdədir. Bəzi tədqiqatçılar isə, bu prosesin modernləşmə və kapitalizm ilə yaşıd olduğunu irəli sürür, onu industrial cəmiyyət və yeni kapitalist münasibətlərinin formalaşması ilə bağlı olaraq son illər ortaya çıxan yeni bir hadisə kimi dəyərləndirirlər.

Qloballaşma anlayışı ilə beynəlmiləlləşməni bəzən eyniləşdirirlər. Lakin onlar aşağıdakı bir sıra ümumi cəhətlərə malik olsalar da fərqlilikləri də çoxdur. Bu ümumi cəhətlərə-təsərrüfat əlaqələrinin ümumdünya xarakteri və onlara adekvat olan nəqliyyat və

kommunikasiya sistemlərinin meydana çıxmasını; “informasiya inqilabı” adlanan proses ümumplanetar ünsiyyəti mümkün edir, bu ünsiyyət isə öz növbəsində məkan və zaman çərçivəsinə sığmır; bazar əlaqələrinin ümumi liberallaşması: ticarət sahəsində bəzi məhdudlaşdırılmalar istisna olmaqla kapitalın azad hərəkətinə maneənin olmaması; ekoloji böhranın ümumbəşəri, planetar problem kimi qəbul edilməsi.

Qloballaşmanın inkar edilməsi, ölkələrin iqtisadiyyatda, siyasətdə və mədəniyyət sahələrində qarşılıqlı asılılığı məsələsinin müzakirə obyekti kimi seçilməsi təbii ki, ciddi qəbul edilə bilməz. Qloballaşma zamanın reallığıdır. Ona görə də sosial-syasi tədqiqatın hədəflərindən biri kimi söhbət qloballaşma ilə sosial ədalət arasında tarazlığın axtarışından gedə bilər. Həyatın əsas sahələrinin beynəlmiləlləşməsini dünyamızdakı qeyri-bərabərliyin nisbətən aradan qalxmasına, ümumdünya mədəniyyətinin çiçəklənməsinə istiqamətləndirilməsi və onun yollarının üzə çıxarılması təbii ki, ciddi araşdırmalar tələb edir. Təsadüfi deyildir ki, Ümumilli liderimiz Heydər Əliyev 7 sentyabr 2000-ci ildə Nyu-York şəhərində Minilliyin zirvə görüşündə çıxış edərək demişdir: “Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heçdə birmənalı olmayan prosesin prspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına iqtisadi münasibətlərdə ayrı seçkiliyin aradan qaldırılmasına xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir”.[31]

Qloballaşmanı eyni zamanda dünyanın Avropa dəyərlər sisteminə transformasiyasının bir mərhələsi də hesab edənlər vardır. Əslində cəmiyyətin dəyərlər sisteminin tarixi təkamülünün qloballaşmaya gətirib çıxarmağı ciddi şübhə doğurmur. Məsələ Avropada xristian dəyərlərinin yeganə dəyər kimi təqdim olunaraq yayılması və ona olan haqlı reaksiyayalardır.

Tədqiqatın ikinci fəsli “**Müasir beynəlxalq siyasi proseslərdə idarəolunan xaosun yeri və rolu**” adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir və birinci paraqraf “**Davamlı inkişaf və milli prioritetlər**”ə

[31] Ümumilli liderimiz Heydər Əliyevin 7 sentyabr 2000-ci ildə Nyu-York şəhərində Minilliyin zirvə görüşündə çıxışı https://lib.aliyevheritage.org/az/4303106.html

həsr olunub. Burada xaosun yaradılması prosesi hazırki dünya reallığıda nəzəriyyədən əlavə həmçinin, praktiki istiqamətli məsələ kimi səciyyələnə bilər. Nə üçün idarə olunan xaos lazımlıdır. Onun spesifik xüsusiyyəti nədədir. Nəzəri baxımdan xaosun yaradılması üsullarında baş verən dəyişikliklərin əsasında nə kimi amillər dayanır. Xaos, ümumiyyətlə, nizamsızlıq, qarışıqlıq və qaydasız vəziyyəti ifadə edir. Fizikada, xaos nəzəriyyəsi mürəkkəb sistemlərdə kiçik dəyişikliklərin böyük və proqnozlaşdırıla bilməyən nəticələrə səbəb olduğunu öyrənir. Bu nəzəriyyəyə əsasən, bir sistemdə hər şeyin əvvəlcədən proqnozlaşdırılması mümkün olmayacaq qədər qeyri-sabitlik və dəyişkənlik mövcud ola bilər.

"Xaosa reaksiya" adlı məqaləsində S.Mann öz-özünə təşkil olunmuş tənqidiliyi müzakirə edir. Burada o, kiçik narazılığın mürəkkəb sistem üçün təhlükəli olduğunu vurğulayır. Onun fikrincə, beynəlxalq münasibətlərdə nizam yoxdur. Öz-özünə təşkil olunmuş tənqidilik modeli siyasi mühiti xarakterizə edir:"Tənqidilik bizə deyir ki, kritik mühitdə istənilən stabillik metastabillikdir. Mürəkkəb sistemlər tarazlığa nail ola bilmirlər, bir metastabil vəziyyətdən digərinə keçirlər."[32]

Müasir dövrdə məşhur bir nəzəriyyə olan idarəolunan xaos nəzəriyyəsi bəzilərinə görə riyaziyyat, bəzilərinə görə isə fizika nəzəriyyəsidir. Amma hər nə qədər riyaziyyat, ya da fizika mənşəli nəzəriyyəsi olsa da həyatın hər sahəsində xüsusilə də beynəlxalq əlaqələrdə qarşımıza çıxan bir nəzəriyyədir.

Son dövrlərdə idarəolunan xaos nəzəriyyəsi beynəlxalq əlaqələr sahəsində tez-tez istifadə edilməyə başlamışdır. Eyni zamanda, hədəf auditoriyasını müəyyən etmək baxımından rəqibin təbliğat təsirini təhlil etmək baxımından da xaosdan istifadə olunur. Frenk Cefkins qeyd edirdi ki, xaos sahəsindəki fəaliyyət daha geniş ictimaiyyətin tərkib hissəsi olan diqqətlə seçilmiş insan qruplarına yönəldilmişdir. Təkcə oz auditoriyanı aydınlaşdırmaq yox, eyni zamanda onların maraqlarını, ideallarını və kommunikasiya kanallarını da dəqiq müəyyənləşdirmək vacibdir. Bu həm də strategiya üçün vacibdir.

---

32 Mann M. The Reaction to Chaos. - In: Complexity, global Politics, and National security. Ed. By D.Aberts and Th. J. Czerwineki. Washington: National Defence University.

Xaos nəzəriyyəsini anlamaq asan görünsə də bu prosesin əsl mahiyyətinə elmi nəzər yetirdiyimiz zaman xaosun həqiqi və görsənməyən mahiyyəti ilə qarşı-qarşıya qalırıq. Bir şox tədqiqatçılara görə xaos demokratiya prosesini iflasa apara bilər. Müasir dövrdə beynəlxalq münasibətlər xaos və nizam dilleması ilə daha çox qarşılaşır.. Müasir dövrdə informasiya sahəsində qloballaşma, süni intellekt, ekoloji amillər daha yeni xaosun yaradılmasında istifadə edilə bilir.Məşhur Amerika politoloqu, siyasi analitik, sosioloq və dövlət xadimi Zbiqnev Bjezinski müasir dünyanı görünməmiş qeyri-sabitlik və xaos kimi təsəvvür edir. Qeyd edək ki, proqnozlar gələcəyi hesablamaq və ya "tapmaq" üçün verilmir. Gələcək barədə mübahisələr bizim indiki həyatımızın dərkinin ən vacib hissəsidir.[33] Xaos nəzəriyyəsi bir çox hallarda nizamın özündə nizamsızlıq elemenntlərini artırır. Xaos nəzəriyyəsinə görə bütün hadisələr yalnız xoş təsadüfün nəticəsində meydan gəlir. Bütün sahələrdə olduğu kimi beynəlxalq əlaqələrdə də hadisələr səbəbsiz meydana gəlibdir və bu hadisələrin heç bir məntiqi mahiyyəti yoxdur.

İkinci fəslin ikinci paraqrafı "**Güclü dövlətlərin milli dövlətlərə təsirində xaos mexanizmlərinin rolu**" adlanır. Burada isə müəllif qeyd edir ki, XXI əsrdə dövlətlərin siyasi proseslərə və digər ölkələrin milli syasi hədəflərinə belə təsir etmək üçün imkanları daha da genişlənmişdir. Yumuşaq güc siyasəti anlayışı əvvəl bir qədər yumşaq sələnsə də ondan istifadənin artması, bəzi hallarda xaosla birləşməsi çətin çəraitlər forması və bundan çıxış yollarını aktual etdi. Hazırki dövrün reallıqlarının analizi gstərir ki, hərbi qüdrət və nüvə silahına malik olmaqdan daha güclü təsir faktorları iqtisadi uğurlar, ideoloji cəhətdən inandırıcılıq və ölkənin mədəni baxımdan daha cəlbedici olmasıdır. Maraqlıdır ki, son dövrlərə qədər xarici siyasətin aparıcı aləti olaraq sərt güc və yaxud ingiliscə ifadə edildiyi kimi, "hard power" hesab edilirdi. Sərt güc ilk növbədə məcburiyyət siyasəti deməkdir, bu isə digər ölkəni hərbi güclə hədələmək və yaxud da birbaşa olaraq hərbi gücün tətbiqinə əsaslanan siyasi xəttin yeridilməsi mənasını verir. Yaxın keçmişdə SSRİ-nin Əfqanıstana, ABŞ-ın Vyetnama hərbi müdaxiləsini bu tip sərt güc tətbiqinə misal olaraq

---

[33] İlham Məmmədzadə. Bir daha fəlsəfə haqqında. "Elm və təhsil", Bakı – 2019, 200 səh.

göstərə bilərik.

İkinci fəslin üçüncü paraqrafı "**Etiraz aksiyaları və rəngli inqilablar idarəolunan xaos kontelstində**" adlanır. Hazırda dünyanın bir çox regionlarında "rəngli" və "rəngsiz" inqilab texnologiyalarıının tətbiqinin şahidi oluruq. Hazırda bu istiqamətdə baş verən siyası hakimiyyət dəyişiklikləri sabitliyə hesablandığı halda xaos və daha ciddi münaqişələr yaratmaqdadır. Yeni xaos taktikaları hakimiyyət dəyişikliklərinin bir neçə forma və prinsiplərini yaratmışdır. Hazırda demokratiya anlayışı yeni xaos üçün aktual məzmun kəsb etmir. Müstəqil dövlətlərin daxili işlərinə qarışmaq, özlərinə sərfəli olan rejimləri hakimiyyətə gətirmək, beləliklə hər hansı bir dövlətin iqtisadi, siyasi və hərbi sferalarını nəzarətə götürmək üçün belə inqilablardan istifadə edilir. Rəngli inqilabların müasir dövrün fenomenlərindən birinə çevrilməsi artıq göz qabağındadır. Süni intellekdən istifadənin siyasi elmin praktiki imkanlarının genişlənməsinə yol açması xaos nəzəriyyəsində yeni metodların tətbiqini qaçılmaz edir. Bir sıra dövlətlərdə baş verən rəngli inqilablar keyfiyyət etibarilə tamamilə yeni geopolitik reallıq yaratmışdır. Bu tipli inqilabların baş verməsi üçün şərait adətən elə tipli ölkələrdə yaranır ki, orada demokratik institutların fəaliyyət göstərməsi üçün şərait yaradılsa da, seçki prosesi ilə geniş miqyasda manipulyasiya etmək imkanları mövcud olur və müxaliffətin qələbəsinə imkan verilmir, bir sözlə, avtoritar və ya nisbətən avtoritar ölkələr nəzərdə tutulur. Belə ölkələrə misal olaraq MDB məkanında Ukraynanı, Grcüstanı, Qırğızıstanı göstərə bilərik. rəngli inqilabların baş verdiyi ölkələrdə şərait, bu inqilablara gətirib çıxaran faktorlar, xarici qüvvələrin təsirləri, eləcə də inqilabdan sonrakı vəziyyətin analizi kifayət qədər maraq doğurur, belə ki, rəngli inqilabların baş verdiyi ölkələrdə yaranan siyasi, sosial və iqtisadi qeyri-sabitlik bəzən illərlə davam edə bilər. Ancaq yeni reallıqlar hətta ən demokratik ölkələrdə də xaosun yaradıla bilməsini qaçılmaz edir.

Dissertasiya "**İdarəolunan xaos vasitəsilə dünyanın dəyişən siyasi mənzərəsi və Azərbaycan**" adlanan III fəsli üç paraqrafdan ibarətdir. Fəslin birinci paraqrafı "Oxşar ssenarilər" əsasında dünya ölkələrində baş verən hakimiyyət dəyişikliklərində (Şərqi Avropa, MDB, Yaxın və Orta Şərq və Afrika ölkələri) xaos nəzəriyyəsinin rolu" mövzusundadır. Müəllif tədqiqatın bu hissəsində bu qənaətə

gəlir ki, siyasi proseslərin təhlilində Xaosa tənqidi düşüncənin tərkib hissəsi kimi baxılmalıdır. Xaos nəzəriyyəsi əslində real dünya problemlərinin spektrinin həllini modelləşdirməyin müasir yolunun əlaməti olan möhkəm struktur “qutu daxilində düşünmə” empirizminə alternativ təqdim edir. Bu nəzəriyyəyə xas olan fərziyyələrin çətinlikləri praqmatik həllərlə modelləşdirilə bilər. Tənqidi düşüncə sferasında kəpənək effekti beynəlxalq terrorizm, dini fundamentalizm, qeyri-funksional təhsil sistemində əhali anlaşılmazlığı və kəşfiyyat qərarlarının qəbulu proseslərinin öyrənilməsində və davamlı həll yollarının axtarışında faydalı ola bilər. “Oxşar ssenarilər” əsasında dünya ölkələrində baş verən hakimiyyət dəyişikliklərini də məhz xaosdan məqsədyönlü istifadə praktikasını ifadə edir.

Şərqi Avropa ölkələrində baş tutan “məxməri inqilablar” və hakimiyyət dəyişiklikləri mühüm əhəmiyyətkəsb etməkdədir. Ötən əsrin 80-ci illərinin sonlarına doğru SSRİ-nin parçalanmağa başlaması və tezliklə dünya siyasi səhnəsindən silinməsi, bu nəhəng dövlətin təsiri altında olan Şərqi Avropa ölkələrinin kommunist rejimləri üçün də son akkordların vurulması demək idi.

“S.Manın fikrincə, bu və ya digər ərazidə xaos yaratmaq üçün aşağıdakı vasitələr mövcuddur: liberal demokratiyanın təşviqi; bazar islahatlarına dəstək; əhalinin, xüsusən də elitaların həyat səviyyəsinin yüksəldilməsi; milli dəyərlərin və ideologiyanın sıxışdırılıb çıxarılması”.[34]

Ümumiyyətlə siyasi müdaxilələr zamanı “səbəblərin yaradılması” maraqlı dövlətlərin xüsusi xidmət orqanlarının vəzifəsinə daxildir. Bu zaman şaiyələrin yayılması, onların kütlə şüuruna sırınması da siyasi məqsədlərə xidmət edir və çox vaxt sosial münaqişə vəziyyətləri ilə əlaqələndirilir. Etnik iğtişaşlara səbəb olan amillərin hərtərəfli nəzərdən keçirilməsində, düşmənçilik şayiələri zorakılığa rəvac vermək üçün düzgün məlumatdan daha təsirli olur. Petersen, Osmundes və Arseneauxun yazdığı kimi “Şayiələr üstünlük təşkil edir, çünki onlar prosesdə hərəkətləri nizamlayır və təşkil edirlər”[35].

---

[34] Манн, С. Реакция на хаос. [Электронный ресурс]. — Режим доступа: http://www.intelros.ru/subject/haos/175-stiv_mann_reakcija_na_khaos.html

[35] MICHAEL BANG PETERSEN, MATHIAS OSMUNDSEN, KEVIN ARCENEAUX The “Need for Chaos” and Motivations to Share Hostile Political

Üçüncü fəslin ikinci paraqrafı "**İdarəolunan xaos təhlükəsinin zərərsizləşdirilməsi üsulları və formaları**" adlanır. Burada isə vurğulanır ki, XX əsrin sonlarına doğru beynəlxalq münasibətlərdə tamamilə yeni bir fenomen özünü göstərməyə başladı. Bu dövrdən etibarən bir çox obyektiv və subyektiv amillərin təsiri altında böyük dövlətlərin digər ölkələrə silahlı müdaxilələrinin ikinci plana keçməsi müşahidə edilir. Qərb dövlətlərinin, xüsusilə də üçüncü dünya ölkələrinin daxili işlərinə müdaxilə etməklə bağlı planları indi tamamilə yeni müstəvidə işlənməyə başladı. Informasiya texnolgiyalarının sürətli inkişafı, elmi-texniki nailiyyətlərin tətbiqi, internetin əlçatan olması artıq böyük dövlətlərin baha başa gələn iri hərbi kampaniyalar əvəzinə yumşaq güc adı verilmiş ekspansiyalarına şərait yaratdı. Artıq hakimiyyət dəyişikliklərini həyata keçirmək üçün zəruri hesab edilən vasitələrin bütöv bir arsenalı Qərb xüsusi xidmət orqanlarının ixtiyarına verilmişdir. Xaosu vaxtında zərərsizləşdirmək bir çoz hallarda yeni ziddiyyətlərin ortaya çıxmasını kimi labüd edir.

Müəllif həmçinin qeyd edir ki, müasir dövrün reallıqları böyük dövlətləri yumşaq güc, "ağıllı güc" kimi vasitələrə üstünlük verməyə, özlərinə sərf etməyən rejimləri devirmək üçün daha incə üsullardan istifadə etməklə hamıya yaxşı məlum olan "rəngli inqilab" texnologiyaları bu qəbildəndir. "Məxməri inqilab" və yaxud da "rəngli inqilab" adı verilmiş bu texnologiyalar milli dövlətlərdə hakimiyyəti zəiflətməyə, xaos və anarxiya yaratmağa, vətəndaş itaətsizliyinə, müxtəlif dinc müqavimət formalarına əsaslanan müdaxilə üsuludur. Əgər əvvəllər bu texnologiyalar keçmiş SSRİ məkanında və Şərqi Avropada tətbiq edilirdisə, ərəb baharı adlanan hadisələrdən sonra, Yaxın və Orta Şərq ölkələrində də "rəngli inqilab" seriyalarına start verilmişdir.

Hədəf alınmış ölkənin dünyanın hansı regionunda yerləşməsindən asılı olmayaraq, bu texnologiyalar eyni prinsiplər əsasında tətbiq edilir, onları həyata keçirən xüsusi xidmət orqanları, maliyyələşdirən fondlar və beynəlxalq təşkilatlar, qlobal miqyasda hadisələri işıqlandıran KİV-lər də demək olar ki, eynidir. Artıq Ukraynada və yaxud Misirdə baş verən hakimiyyət dəyişikliklərinin son dərəcə oxşar

---

Rumors. American Political Science Review (2023) 117, 4, 1486–1505, s. 1486-1487

olduğunu, kütlələri meydana çıxaran vasitələrin vahid mərkəzdə işlənib-hazırlandığı heç kimdə şübhə doğurmur. “Rəngli inqilab” texnologiyalarının bütün bu aspektlərini nəzərə alaraq, dünyanın müxtəlif ölkələrində baş verən hakimiyyət dəyiikliklərində tətbiq edilən ssenarilərin oxşarlığını, eləcə də “rəngli inqilab” texnologiyalarını analiz etmək yerinə düşərdi. “Rəngli inqilablar”ı təhlil etməzdən əvvəl, ilk növbədə belə bir məsələyə diqqət yetirmək lazımdır ki, qlobal mediada inqilab adlandırılmasına baxmayaraq, əslində hər bir “rəngli inqilab”ı hakimiyyət dəyişikliyi kimi dəyərləndirmək olar.

Üçüncü fəslin və dissertasiya işinin sonuncu paraqrafı “**Azərbaycanda müstəqilliyin ilk illərində yaranan xaotik vəziyyət və siyasi-iqtisadi stabilliyin əldə edilməsi**” ilə əlaqədardır.

Burada müəllif qeyd edir ki, müstəqilliyini yenicə elan etmiş zəngin təbii sərvətli ölkələrin xaotik situasiyalar ilə üzləşməsi faktları dünyada coxdur. Təhlillərdən gördüyümüz kimi, hər hansı bir dövlətdə “rəngli inqilab” texnologiyalarının tətbiqi və inqilabların uğurla sona çatması üçün həm daxili, həm də xarici faktorlar üst-üstə düşməli, beləliklə də, geniş media və maliyyə dəstəyi, xarici xüsusi xidmət orqanlarının fəaliyyəti ilə inqilab həyata keçirilməlidir. Burada böyük korporasiyaların rolunu da nəzərə almamaq qeyri mumkündür.[36] Dünyanın müxtəlif regionlarında bu ssenarilər əsasında həyata keçirilən “rəngli inqilablara nəzər saldıqda, onların hamısında daxili və xarici faktorların üst-üstə düşməsinin şahidi oluruq.

Artıq 30 ildir ki, müstəqil Azərbaycan Respublikası beynəlxalq hüququn subyekti kimi dünya dövlətləri arasında özünə layiqli yer tutmaqdadır. Bu müstəqillik respublikamız üçün heç də asan başa gəlməmişdir. Xalqımızın müstəqillik uğrunda apardığı mübarizə böyük itkilər və şəhidlərin verilməsi ilə müşahidə olunan ağrılı bir proses kimi tarixi yaddaşımızda özünə yer tutur. Azərbaycan Respublikasıı müstəqilliyinin qarşısını almaq, onu daima özündən asılı vəziyyətdə saxlamaq istəyən qüvvələrin təhriki ilə başladılmış və Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılan Dağlıq Qarabağ

[36] Skocpol T. States and Sosial Revolutions. A Comporative Analysis of France, Russia and China. Cambridge University Press, 1979. Huntington S.P. Political Order in Changing Societies. New Haven: Yale University Press, 1968.

problemi uzun illər ərzində ölkəmizin dinamik inkişafının qarşısını kəsən sədd rolunu oynamışdır. Belə bir vəziyyətdən çıxmaq üçün ölkəyə dəmir iradəli, səriştəli, təcrübəli lider lazım idi. Azərbaycan xalqı belə həlledici anda düzgün qərar verərək, təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevi rəhbərliyə dəvət etdi. Məhz onun respublika rəhbərliyinə ikinci dəfə qayıdışından sonra bütün bu problemlər qəti olaraq öz həllini tapdı, Azərbaycan siyasi, iqtisadi və hərbi uğursuzluqlar zolağından çıxdı, ölkənin qarşısında yeni perspektivlər açıldı, xalqımız öz azadlığını əldə edərək onu göz bəbəyi kimi qoruyub saxlamağa nail oldu.

Heydər Əliyevin siyasətinin layiqli davamçısı İlham Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan yeni-yeni uğurlara imza atmaqdadır. Yaxın və Orta Şərqdə, Qafqazda və MDB məkanında baş verən kataklizmlərin fonunda Azərbaycan sülh və sabitlik, tolerantlıq adasını xatırladır. Lakin bu uğurları gözü götürməyən müəyyən xarici dairələr dəfələrlə ölkəmizdəki siyasi sabitliyi pozmaq cəhdləri göstəriblər. Buna baxmayaraq, xalqın və hakimiyyətin birliyi sayəsində, mövcud siyasi stabillik qorunub saxlanılmışdır. Bu gün Azərbaycanın beynəlxalq imici, iqtisadi və mədəni sferada qazanılan uğurlar, ordu quruculuğundakı nailiyyətlər son nəticədə ictimai-siyasi sabitliyin nəticəsi hesab edilə bilər. Dünyanın nəhəng transmilli korporasiyalarının Azərbaycana milyardlarla dollar investisiya yatırmasını da siyasi stabilliyin əyani sübutu kimi göstərmək mümkündür

Azərbaycanın hazırda nail olduğu uğurları qazanana qədər hansı çətinliklərdən keçdiyini bilmək, mövcud siyasi stabilliyin necə təmin edildiyini öyrənmək üçün tarixə qısa ekskursiya etmək yerinə düşərdi.

Dissertasiyanın **“Nəticə”** hissəsində elmi araşdırmaya yekun vurulur, ümumiləşdirmələr əsasında nəzəri və praktiki xarakterli təklif və tövsiyələr irəli sürülmüşdür. Belə qənaətə gəlinir ki, müasir beynəlxalq siyasi proseslərdə idarə olunan xaos nəzəriyyəsinin mahiyyətini, onun tarixi inkişafını, tətbiq sahələrini və milli dövlətlərə təsir mexanizmlərini araşdırmaqla, böyük güclərin bu strategiyadan geosiyasi, iqtisadi və ideoloji məqsədlərinə nail olmaq üçün istifadə etdiyini ortaya qoymuşdur. Araşdırmada idarə olunan xaos nəzəriyyəsinin qloballaşma dövründə güclü dövlətlərin əsas siyasi

texnologiyasına çevrildiyi və onun beynəlxalq münasibətlər sistemində yeni dinamikalar yaratdığı vurğulanmışdır.

İdarə olunan xaos nəzəriyyəsi mürəkkəb, çoxşaxəli bir fenomen kimi tədqiq edilmiş, onun əsas prinsipləri, təzahür formaları və tətbiq metodları dərin təhlil süzgəcindən keçirilmişdir. Əldə olunan nəticələr göstərir ki, bu nəzəriyyə müasir dövrdə rəngli inqilablar, informasiya müharibələri, hibrid münaqişələr və sosial manipulyasiyalar vasitəsilə həyata keçirilərək, milli dövlətlərin siyasi və iqtisadi sabitliyini pozmaq üçün bir vasitə kimi istifadə olunur. Beynəlxalq güc mərkəzləri idarə olunan xaos nəzəriyyəsinin tətbiqi sayəsində öz maraqlarını həyata keçirmək üçün müxtəlif ölkələrdə xaotik vəziyyətlər yaradır və onun üzərindən yeni siyasi nizam qurmağa çalışırlar. Bu strategiya, xüsusilə rəngli inqilablar, iqtisadi sanksiyalar, dezinformasiya kampaniyaları və qeyri-hökumət təşkilatları vasitəsilə təsir gücünü artırmışdır. Belə yanaşmaların əsas məqsədi hədəf seçilmiş ölkələrdə daxili sabitliyi pozmaq, cəmiyyət daxilində qütbləşməni artırmaq və həmin dövlətləri beynəlxalq güclərdən asılı vəziyyətə salmaqdır.

Müxtəlif yanaşmaların mövcudluğuna baxmayaraq, müasir dövrdə yenə də xaos prosesinin gələcəyi ciddi mübahisə və diskussiya mövzusu olaraq qalmaqdadır. Bu prosesin daşıdığı qeyri-müəyyənlik və risklər onun gələcəyi ilə bağlı proqnozlar verməyi də çətinləşdirmişdir.

Siyasi arenada hadisələrin proqnozlaşdırılması da mühüm faktor kimi çıxış edir. Beynəlxalq münasibətlər zamanı siyasi təhlil və proqnozlaşdırma prosesi bir-biri ilə bağlıdır. Bu iki proses zamanı siyasi münaqişənin əsl məğzi, siyasi hadisələrin baş vermə səbəbləri, inkişaf tendesiyası, siyasi hadisələri tənzimlənmə ehtimalı, strateji analizin aparılması, sistem təhlil kimi məsələlər də nəzərə alınmalıdır.

Beynəlxalq münasibətlərdə xaos dövlətlər arasında qeyri-stabillik ilə müşahidə olunur və bu prosesin müfəssəl gedişini proqnozlaşdırmaq da çox çətin olur. "Yaranmış vəziyyətdə beynəlxalq münasibətlərdə böhranlı situasiyaları əvvəlcədən proqnozlaşdırmaq prinsipial əhəmiyyət kəsb edir. Ancaq bu vəzifəni yerinə yetirmək elə də asan deyil. Hadisələrin inkişaf ssenarisi haqqında yalnız ehtimal aspektində danışmaq mümkündür. Bu da,

gözlənilməz, sıçrayışlı hadisələri öncədən proqnozlaşdırmaq imkanlarını faktiki olaraq minimuma endirir.

Şübhəsiz, belə bir vəziyyət göstərir ki, "meydana çıxan ziddiyyətlərin kəskinləşməsi riski dünya nizamının xarakteri ilə şərtlənir". Belə sistemlərin dinamikası bir qayda olaraq xaotik olur. Xaos isə qeyri-müəyyənliyin mənbəyidir.

Qeyd olunanları ümumiləşdirsək tədqiqat nəticəsində əldə edilən aşağıdakı mühüm elmi nəticələri təqdim edə bilərik:

-İdarə olunan xaos nəzəriyyəsinin mahiyyəti və onun beynəlxalq güc mərkəzləri tərəfindən tətbiqi üsulları geniş təhlil edilmişdir.

-Qloballaşma dövründə güclü dövlətlərin rəqib ölkələrə təsir strategiyalarında xaosun əsas alət kimi istifadə edilməsi faktları araşdırılmışdır.

-Rəngli inqilablar, sosial manipulyasiyalar və informasiya müharibələrinin idarə olunan xaosun əsas tətbiq formaları olduğu müəyyən edilmişdir.

-Azərbaycan təcrübəsi əsasında milli təhlükəsizliyə qarşı xaos təhdidlərinin zərərsizləşdirilməsi üsulları və xalq-lider birliyinin əhəmiyyəti təhlil edilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində dərc edilmişdir:**


1. Nəzərov B.Ə. Müasir beynəlxalq siyasi proseslərdə idarəolunan xaos nəzəriyyəsi: siyasi təhlil //Azərbaycan Dövlət İdarəçilik Akademiyası "Heydər Əliyev irsi və Azərbaycan Respublikasının davamlı inkişafı" mövzusunda doktorant və dissertantların elmi-praktik konfransının materialları, 2015. S. 191-198.
2. Nəzərov B.Ə. Dinc etiraz aksiyaları və "rəngli" inqilablar idarəolunan xaosun forma və vasitələri kimi // Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə, 2018. №2 (62). S. 253- 264.
3. Nəzərov B.Ə. Azərbaycanın güclü sosial iqtisadi inkişafı Beynəlxalq siyasi proseslərdə idarəolunan xaos kontekstində // Azərbaycan Respublikası "Geostrategiya" jurnalı, 2018. №3 (45). S. 66-68.

4. Nəzərov B.Ə. Chaotic Situation in the Middle East, Arab Spring and the Syrian problem // Cultural Sosial History International Academic journal, 2018. №1. S. 52-66.
5. Nəzərov B.Ə. «Мирные акции протеста» и процесс их подготовки через призму взглядов политолога-теоретика Дж. Шарпа // Хабарбашы Вестник Bulletin Серия «Международная жизнь и политика», 2018. №3-4 (54-55). S. 211-215.
6. Nəzərov B.Ə. Controlled chaos in international modern polytechnic prosses and conflicts in the Caucasus // Международная научно-практическая конференция «Наука и инновации в XXI веке актуальные вопросы, открытия и достижения», 2018. S. 110-115.
7. Nəzərov B.Ə. Как «Теория хаоса» трансформировалась в «Управляемый хаос» // Хабарбашы Вестник Bulletin Серия «Исторические и социально-политические науки», 2019. №1(60). S. 181-187.
8. Nəzərov B.Ə. Экономическая глобализация и управляемый хаос: начало конца // Azərbaycan Dövlət Neft və Sənayə Universitetinin 100 illik yubileyinə həsr edilmiş gənc tədqiqatçı və doktorantların elmi konfransının materialları, 2020. S. 967-972
9. Nəzərov B.Ə. Как создают Гомо Мобилиус: IT осьминоги на пути к мировому господству // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş gənc tədqiqatçı və doktorantların onlayn Elmi Konfransı, 2021. S. 634-638.



Dissertasiyanın müdafiəsi "19" iyun 2025-ci il tarixində saat "13:30"-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının FD 2.30 Dissertasiya Şurası nəzdində fəaliyyət göstərən BED 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "19" may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.04.2025
Kağızın formatı: A5
Həcm: 40.168
Tiraj: 100